**Məryəm Əlizadə,**
*sənətşünaslıq doktoru, professor*



# Ovsunlanmış səhnə

***S.Rəhman adına Şəki Dövlət Dram teatrının "Dövlət sifarişi üsulu" ilə hazırladığı M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" tamaşasına həsr etdiyim yazımın başlığına ovsun söz-anlayışını orijinallıq xatirinə yazmamışam (hərçənd ki, bu məqam da yox deyil). Elə bu başdan bəyan etməliyəm ki, şəkililərin tamaşası ovsun və bu xassəli səciyyələrlə mənim üçün əlamətdar oldu, məni həyəcanlandırdı, düşündürdü. O qədər də geniş olmayan bu resenziya-essedə yalnız və yalnız ovsunla bağlı mətləbləri açıqlamağa cəhd etdim...***

* * *

"Molla İbrahimxəlil kimyagər" tamaşasını gənc rejissor Şahbaz Rəsul yuxarıda dediyim kimi "dövlət sifarişi" və konkret olaraq Mədəniyyət və Turizm Nazirliyinin "gənc rejissorların seleksiyası" layihəsinin çərçivəsində hazırlamışdır. Bilavasitə tamaşa haqqında qeydlərimi təbii ki, hörmətli oxuculara aşağıda təqdim edəcəyəm. Burada isə kiçik bir arayışa ehtiyac var. Məsələ ondadır ki, sözügedən tamaşanı görkəmli sənətçi, Şəki teatrının yaradıcılarından biri olan rejissor Hüseynağa Atakişiyev hazırlamalı idi. O, hətta teatrın truppası ilə ilkin söhbətlər aparmış və musiqi tərtibatında əsasən leytmotiv kimi Soltan Hacıbəyovun "Karvan" simfonik muğamından istifadə etmək niyyətini də bildirmişdi.



## Resenziya-esse

Amansız xəstəlik və qəfil ölüm bu gözəl sənətkarın indiyə qədər yaratdıqlarının üstündən xətt çəkə bilmədi. Amma nə yazıq ki, bu vaxtsız ölüm rejissorun yarada biləcəyi əsərlərinin, ümumiyyətlə, yaradıcı planlarının üstündən xətt çəkməyi bacardı…

…Tamaşanın finalında "Karvan" simfonik muğamının sədaları altında ovsunlanmış bizlər yaxşı tanıdığımız aktyorları da nə isə sirli-sehrli aura içində görməyə başladıq. Və bu azmış kimi arxa pərdədə qaranlığa açılan qapı çərçivəçində unudulmaz dostumuz Hüseynağanın titrəşən görüntüsü yarananda tamaşa boyu pillə-pillə yaranıb artan ovsunun dərəcəsi kulminasiya nöqtəsinə çatdı: biz səhnəyə baxırdıq, səhnənin dərinliyindən - gedər-gəlməzlikdən isə Hüseynağanın kədərli gözləri bizə baxırdı.

Əslində az-maz təcrübəsi olan teatrşünas kimi mən bu emosional nəticəni proqnozlaşdırmalı idim. Çünki tamaşanın afişa və proqramındakı ithafı görmüşdüm. Bax, bunu: tamaşa görkəmli sənətkar Hüseynağa Atakişiyevin işıqlı xatirəsinə həsr olunub. Doğrudan da səhnədən salona ötürülən işıq selində bir çox mətləbləri anladım - duydum, bəzilərinin yalnız izini gördüm, özlərini tuta bilmədim, amma bütövlükdə bu ovsunun dərinliklərindən yenə də özüm üçün əzəli bir həqiqəti təsdiqlədim: "Həyat qısa, sənət isə əbədidir".

* * *

Şəki teatrının əsl, necə deyərlər "metrika"sına görə yaşı haqqında mübahisələr gedir. Amma ən azından bilirik ki, sonuncu dəfə gözəl Şəkidə peşəkar teatrın fəaliyyəti 1975-ci ildə bərpa olunub, yəni ki, bu teatrın "nəqd" 30 yaşı var. 23 yaşlı gənc (sovetlər dönəmində bu yaş dövrü bəlkə də yeniyetmə kimi müəyyənləşdirilərdi…) rejissor Şahbaz Rəsul qurduğu tamaşanın ilk anlarından bizi ovsunlu "sahə"yə dəvət etmişdir. Bunu o, hələ tamaşanın janr təyinində də bildirmişdr: "2 hissəli ovsunlanmış səhnə novellası".

Açığını desəm, tamaşanın proqramında və afişasında yerləşdirilmiş bu janr təyininə o qədər də fikir verməmişdim. Bəlkə ona görə səhnədə sərgilənən olaylara yalnız "komediya" janrının prizmasından baxırdım. Amma etiraf edim ki, "ovsunlanmış səhnə novella"sının təsirinə nə zaman köklən-dim, bunu dəqiq deyə bilmərəm. Gənc rejissorun təqdirəlayiq səhnə kompozisiyası duyumu, təyin etdiyi tempo-ritmin səliqəliliyi (arayış: temp - səhnə hadisələrinin gedişatının sürəti, ritm-hadisələrin daxili xarakterini əyaniləşdirən vasitələr), plastik ifadəlilik bacarığı, incə yumoru və ən ümdəsi ovsun dediyimiz sehrli ovqat yaratmaq bacarığı kimsəni laqeyd qoya bilməzdi. Gənc Şahbazın tamaşaya verdiyi final nöqtə məni əməlli-başlı kövrəltmişdi. Və qulağımda ulu Yunus Əmrənin misraları səslənirdi. Bax bunlar:

***Biz dünyadan gedər olduq,***
***Gələnlərə salam olsun!***
***Bizim üçün xeyir-dua***
***Qılanlara salam olsun!***

Bu misralar məndən ötrü Şahbazın mərhum Hüseynağa Atakişiyevə oğul ehtiramında, Şəki teatrının istedadlı rejissoru Mirbala Səlimlinin Şahbaza göstərdiyi böyük qardaş qayğısında, hər ikisinin - Mirbalanın və Şahbazın tamaşanın bədii rəhbəri ustad rejissor və müdrik pedaqoq Vaqif İbrahimoğluna olan sayğılı-sevgili münasibətlərində gerçəkləndi, konkret məna qazandı. Sanıram bunu məndən başqa da hər kəs gördü, duydu, anladı və bəlkə də hamı inandı ki, sən demə bizim milli teatrda da bu cür qutlu… işıqlı… insani münasibətlər mümkün olarmış!..

…Şahbazın cəsarətli, bəzi məqamlarda isə riskli mizan-səhnələrinin aktyorlar tərəfindən son dərəcə nizamlı, dəqiqliklə ifa olunmasını qeyd edə-edə düşünürdüm ki, bu da Şəki teatrının müsbət ənənəsinin təzahürüdür: teatrın aktyorları sənətinin keyfiyyətinə və düşüncəsinin səviyyəsinə inandıqları rejissorun bütün, ən fantasmaqorin ideyalarını belə yüksək peşəkar səviyyədə realizə etməyə hazır bulunurdular. Bunu konstotassiya edəndən sonra rejissora da, aktyorlara da hörmətim birə-on artdı.

* * *

Tamaşanın ümumi görüntüsü ağ-qara, qrafik tabloları andıran koloritdə həll edilmişdir. Avanqard düşüncəyə meylli olan "Qızıl Dərviş" mükafatı laureatı, rəssam Söhrab Ərəbovun səhnəqrafiyası ən azı üç baxımdan uğurlu iş kimi dəyərləndirilə bilər: birincisi, bu özünəməxsus rəssam düşüncəsinə malik rəssamın gənc rejissorun təklif etdiyi yozumu adekvat (necə var) anlayıb onun səhnə ekvivalentini yaratması səmərəlidir; ikincisi, sözügedən tamaşaya verilən tərtibatın bütün ünsürlərinin (dekorların, əlbəsələrin, geyimlərin, əşyaların və s.) son dərəcə səliqəli və gözəgörümlü (etiraf edək ki, bu bədii keyfiyyəti heç paytaxt teatrlarının çoxusu qoruya bilmir…) olması təbii ki, rəssamın hünəridir; üçüncüsü, teatrlarımızda nadir olan bir hal - arxa pərdənin üzərində sərgilənən lövhə (bu haqda aşağıda müfəssəl danışmasam, dözmərəm!..) Söhrab Ərəbovun öz əlləri ilə çəkilmişdir, bu isə rəssamın sənətinə münasibətini ən yüksək səviyyədə təsdiqləyir.

İndi isə səhnəarxası pərdədən - həmin sənət əsərindən söz açım: ağ-qara qrafika üslubunda təsvir olunmuş Şəkinin (Azərbaycanın Şəki kimi bir sıra başqa qədim şəhərlərini də andıran) evlərinin üstündəki fantastik ağaclar sanki təbiətin qanunauyğunluğuna zidd və yalnız rəssamın yaradıcı təxəyyülünə tabe olaraq hər tərəfə - bəziləri göyə, bəziləri bir-birinə sarı, bir neçəsi isə bitdikləri torpağa doğru yönəlir. Təsvir olunmuş evlərin az qala fotoqrafik dəqiqliklə damların üzərində ərkyana özgürlük içində tüğyan etməsi eyni zamanda kontrast və nə isə ovsunlu, sehrli bağlılıqdan xəbər verir. Tamaşa başlanandan əvvəl bir neçə dəqiqə bu tablonu seyr edəndən sonra sən demə mən bilincsiz olsa da, baxacağım tamaşanın ovqatına köklənmişəm. Səhnədə xəsisliklə istifadə

olunan nəsnələrin hamısı məhz yuxarıda göstərdiyim qrafika koloritində verildiyi üçün tamaşaçılara təqdim edilmiş komediya özünün mistik, ovsunlu qatını da açmağa qadir oldu. Eşitdiyimə görə, rəssam Söhrab Ərəbovun bu yaxınlarda fərdi sərgisi olacaq - mütləq gedəcəyəm!

* * *

M.F.Axundzadənin 6 komediyası içində "Mirzə İbrahimxəlil kimyagər" komediyası özəl yer tutur. İlk öncə bu əsəri digərlərindən fərqləndirən bir məqam onunla bağlıdır ki, sözügedən komediya Aristotel poetikasında yazılmış əsərdən daha çox, genişləndirilmiş səhnə lətifəsini andırır (məhz bundan çıxış edərək rejissor tamaşanın janrını səhnə novellası kimi müəyyənləşdirmişdir). "Lətifə" üçün xeyli uzun, amma səhnə tamaşası üçün çox qısa olan bu pyesin digər fərqi əsərin konfliktində "məhəbbət düyünü"nün, "məhəbbət üçbucağı"nın, bir sözlə, "qadın başlanğıcı"nın olmamasıdır (yadıma böyük dramaturqumuz İlyas Əfəndiyevin sözləri düşür: o, dramaturgiya haqqında etdiyimiz söhbətlərdə tez-tez təkrar edərdi ki, personajların sırasında qadın qəhrəman olmasa, əsərin səhnə həyatı uğurlu olmayacaq).

Rejissor Şahbaz Rəsul bəlkə də bu məqamı nəzərə alaraq tamaşada mühüm rol oynayan və funksional yükü kifayət qədər "ağır" olan əlavə etdiyi dörd personajın ikisini qadın obrazında səhnəyə çıxarır. Aktrisalar Sima Şabanova (Şəhvət) və İnqa Şabanova (Qarabasma), gənc aktyorlar İlham Musayev (Qorxu) və Qurban Rəsulov (Nəfs) isə son dərəcə ifadəli, təsirli, tamaşanın ovsun başlanğıcını təmin edən "kvartet"i tamamlayırlar. Adlarını çəkdiyim aktyorların plastikası, akrobatikaya yaxınlaşan xoreoqrafiya bacarıqları mənə Şəki teatrının əfsanəvi tamaşalarını xatırlatdı. Bu "kvartet"in başında duran Akif Yusifov (Dərviş Abbas) öz son dərəcə mənalı və təmkinli oyun tərzi ilə lətifə xarakterli komediyaya nə isə sehrli, hətta bir qədər də qorxulu xassə qazandıraraq tamaşaçı üçün "gülməli əhvalat"ın dərin qatlarına varmaq imkanını yaratdı.

Məncə tamaşanın uğurunun böyük bir hissəsi səhnədə "kollektiv obraz" sifətində çıxış edən və "Şəki sakinləri" kimi müəyyənləşdirə biləcəyimiz parlaq aktyor ansamblının ünvanına yazılmalıdır. Ansambl da ona görə ansambldır ki, təqdirəlayiq vəhdət içində yaradıcılıqla məşğul olan sənətçilərdən birini digərindən ayırmaq mümkün deyil. Tamaşanın proqramında verilən siyahı ilə getsək, aktyorlardan "Qızıl Dərviş" mükafatı laureatı Aydın Əlibalayevin (Hacı Kərim), Fərahim Fətəliyevin (Ağa Zaman), Rəhim Qocayevin (Şair Hacı Nuru), Pərviz İsmayılovun (Molla Salman), "Qızıl Dərviş" mükafatı laureatı Əlgüşad Rəhimovun (Məşədi Cabbar), Çingiz Novruzəliyevin (Səfər bəy), Niymət Ağabalayevin (Şeyx Salah) ansambl ifa şərtinə yaradıcı nizam-intizamla yanaşaraq fərdi bacarıqlarını parlaq şəkildə ifadə etmələrini mütləq nəzərə çatdırmalıyıq. Yuxarıda göstərdiyim kimi, tamaşa ağ-qara qrafika üslubunda həll edildiyi üçün bu prinsip geyimlərin rəngində də qorunub. Belə ki, Dərviş Abbasın özünün də, "xidmətində" bulunan "infernal kvartet"in də geyimləri qara rəngdədir, "Şəki sakinləri"nin əynində isə ağ parçadan tikilmiş milli (alt paltarla əba arasında olan) geyimlər var. Bu kontrast yaradan ağ-qara personajların arasında şalvarı, araxçını qara, köynəyi isə ağ olan bir personaj da var. Bu fırıldaqçı kimyagərin köməkçisi Molla Həmiddir. Gənc aktyor Rəşad Rüstəmov bu personajın marginal (sərhəddə duran) xarakterini olduqca aydın və ifadəli təqdim edərək səhnə kompozisiyasının sürətli dəyişmələrinə təkan verir.

Və - nəhayət, pyesin və tamaşanın baş qəhrəmanı Molla İbrahimxəlil... Bu obrazın mürəkkəb olduğu qədər sadəliyini, mücərrəd olduğu qədər konkretliyini, qorxulu olduğu qədər gülməliliyini, ağır olduğu qədər çevikliyini təsvir etməyəcəyəm. Bütün bunları görərək olmazın zövqünü almaq istəyənlər iki dəfə "Qızıl Dərviş" mükafatı laureatı olan Şəki teatr məktəbinin parlaq nümayəndəsi, gözəl sənətkar Xanlar Haşımzadəni səhnədə görməlidir!

* * *

Yuxarıda qeyd etdiyim kimi bu tamaşa - "Molla İbrahimxəlil kimyagər" gənc rejissor Şahbaz Rəsul tərəfindən Şəkidə səhnəyə qoyulmuşdur. Yazımda dönə-dönə gənc ifadəsini işlətməyimi nəzərə alaraq bu söz-anlayışın bir məqamını açıqlamaq istərdim. Sənətimizin yaşlı nəslinə mənsub olanlara bəllidir ki, sovetlər dönəmində "gənc sənətkar"ın (aktyor, rejissor, rəssam, bəstəkar və s.) yaş hüdudu 40 yaşla təyin olunurdu, yəni ki, 40 yaşınacan sənətkar gənc "qrafa"sında qeydə alınırdı. Bu hesabla 40 yaşına qədər rejissor ciddi qəbul olunmurdu və ona mürəkkəb, məsuliyyətli layihələr bir qayda olaraq tapşırılmırdı. Şahbaz Rəsulun Şəki teatrında tamaşa qoyduğu zaman 23 yaşı yenicə tamam olmuşdu. Əski ölçülərlə onun adı "uşaq", maksimum "yeniyetmə" "qrafa"sına salınardı, özü də böyük teatr səhnəsinə yaxın buraxılmazdı...

Mədəniyyət və Turizm Nazirliyinin həyata keçirtdiyi "Gənc rejissorların seleksiyası" layihəsinin qutlu məğzi də, tarixi mənası da, obyektiv dəyəri də məhz ondadır ki, istedadlı gənclər tam zamanında özlərini sınamaq və təsdiqləmək imkanını tapır və tapacaq. Bu isə teatrımızın gələcəyinə böyük qayğı və inam deyil, bəs nədir? Dövr də başqa dövrdür: özlərindən qat-qat gənc olan rejissora inanaraq, onun yaradıcı iradəsini qəbul etmiş və nəticədə bütövlükdə milli teatrımıza başucalığı gətirmiş tamaşanı ərsəyə yetirmiş teatr kollektivi - texniki işçilərdən tutmuş ta müdiriyyətə qədər yalnız və yalnız təbrikə və hörmətə layiqdir.

...Nə olsun ki, Şəki teatrının sənətkarları bu vaxta qədər fəxri adlara layiq bilinməyiblər?! İnşaallah, bu ədalətsizliyə yaxın zamanlarda son qoyular.

Şəxsən mən buna inanıram.